

# Söz və əməl birliyi

***Sürətlə aparılan bərpa işləri onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Qırx dörd günlük Vətən müharibəsində əldə edilən tarixi zəfərdən sonra Qarabağda bərpa-quruculuq işləri sürətlə həyata keçirilir, enerji, kommunal xidmət obyektlərinin, nəqliyyat infrastrukturlarının inşası sürətlə davam etdirilir. Bu istiqamətdə ilk layihələr Füzulidən başlayıb. Qarabağın dünyaya açılan hava qapısı kimi dəyərləndirilən Füzuli Beynəlxalq Hava Limanının təməli məhz cari ilin yanvarında qoyulub. Artıq beynəlxalq statusa malik aeroport fəaliyyətə başlayıb. Prezident İlham Əliyev hava limanında yaradılan şəraitlə tanışlıq zamanı bir daha bildirib ki, burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.***

Şuşada da tikinti-bərpa işləri geniş miqyas alıb. Burada bir neçə gün bundan əvvəl ilk modul tipli xəstəxana fəaliyyətə başlayıb.

Şuşa şəhəri işğaldan azad olunduqdan sonra təxirəsalınmaz tədbirlər görülərək şəhərə suyun verilməsi ilə həyati əhəmiyyətli obyektlərin su təchizatı təmin edilib. Bunun ardınca içməli su təchizatı sistemlərinin əsaslı şəkildə yenidən qurulmasına başlanılıb.

İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılan Əlaqələndirmə Qərargahından verilən məlumata görə, Şuşa şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə hazırda layihənin birinci mərhələsi çərçivəsində magistral su kəməri və anbarların tikintisi, həmçinin şəhərdaxili şəbəkənin bir hissəsinin yenidən qurulması nəzərdə tutulur. Bu gün 1980-ci illərdə çəkilmiş Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,3 kilometrlik hissəsinin polad borularla dəyişdirilməsi işləri davam etdirilir.

Avqust ayında icrasına başlanılmış layihəyə uyğun olaraq qısa müddətdə magistral kəmər üzrə planlaşdırılan işlərin 50 faizi yerinə yetirilib. İlk növbədə, kəmərin Zəfər yolu və elektrik yarımstansiyasının ərazisindən keçən hissəsi inşa olunub.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrinin icrası da diqqətdə saxlanılır. Həmin tikintilərdən biri də Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yoludur. Magistral başlanğıcını Hacıqabul–Mincivan–Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonunun Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Tikintisi aparılan yolun uzunluğu 39, 7 kilometrdir.

“Azərişıq” ASC Kəlbəcər rayonunun mərkəzində daxili şəbəkə, küçə işıqlandırması və müxtəlif dövlət orqanlarının yerləşdiyi müvafiq tikililərdə elektrik enerji xətlərini bərpa edib.

Qurumdan verilən məlumata görə, hazırda Kəlbəcərin elektrik enerjisi ilə təchizatını dayanıqlı və keyfiyyətli etmək üçün əsaslı işlər görülür. 110 kV-luq Kəlbəcər xəttinə elektrik enerjisi ötürəcək Daşkəsəndə yerləşən 110 kV-luq yeni “Daşkəsən” yarımstansiyası inşa edilir. Həmçinin mənbə kimi istifadə olunacaq “Gəncə-2” yarımstansiyasından Daşkəsənə, 110 kV-luq “Daşkəsən” yarımstansiyasını qidalandıracaq yeni çəkilən 110 kV-luq elektrik verliş xəttinin dayaqlarının tikilməsi prosesi də davam edir. Bu xətt Azərbaycanda ən mürəkkəb və çətin relyeflərdən keçən yüksək gərginlikli xətt kimi tarixə düşə bilər.

Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında azad edilən ərazilərin bərpası prosesindən danışarkən bu məsələdə dost ölkələrin fəaliyyətinə daha çox diqqət yetiriləcəyini xüsusi vurğulayıb. Ölkə rəhbəri bu zaman qardaş Türkiyənin Azərbaycana münasibəti barədə xüsusi danışıb, bu ölkənin müharibənin ilk günlərindən haqq işimizə böyük dəstək verdiyini xatırladıb. Bütün bunlardan sonra təbii ki, qardaş ölkə Qarabağın bərpasında da köməyini əsirgəməyəcək. İlk müqavilələrin Türkiyə şirkətləri ilə imzalanması da bunun bariz ifadəsidir.



Dövlətimizin başçısı oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatında qardaş ölkənin Vətən müharibəsində Azərbaycana siyasi-mənəvi dəstəyindən, hazırda isə işğaldan azad olunan ərazilərimizdə bərpa-quruculuq işlərində fəal iştirakından bəhs edərkən deyib: “Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi. Səkkiz ay ərzində beynəlxalq hava limanı inşa edildi. Bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur”.

Bəli, qardaş Türkiyə bu gün işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq-bərpa işlərində Azərbaycanla bir yerdə fəaliyyət göstərir. Prezident Rəcəb Tayyib Ərdoğan da oktyabrın 26-da Zəngilanın Ağalı kəndində dövlətimizin başçısı İlham Əliyevlə birgə mətbuata bəyanatında bu barədə ətraflı bəhs edib. Qardaş ölkənin dövlət başçısı Şuşaya səfərindən dörd ay yarımdan sonra bu dəfə Zəngilanda olmaqdan böyük məmnunluq duyduğunu vurğulayaraq, Azərbaycanın işğaldan azad edilən bu bölgələrinin qısa müddət ərzində həqiqətən necə dirçəldiyini, necə sürətlə inkişaf etdiyini gördüyünü bildirib: “Bu, hər igidin, hər siyasətçinin işi deyil. Bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq, bu işləri həyata keçirmək, inanıram ki, doğma yurdundan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarım üçün buradan bir müjdə vermək imkanı yaradır. Çünki azərbaycanlı qardaşlarım ayrıldıqları torpaqlara, inanıram ki, ən qısa vaxtda son dərəcə gözəl şəkildə inşa edilən, canlandırılan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər. Burada qarşımızdakı binaya, sol tərəfimizdəki binalara baxırıq. Bu binalar orijinal, tarixi üslubda son dərəcə gözəl bir şəkildə inşa edilir...”.




*(ardı 3-cü səhifədə)*

# Söz və əməl birliyi

*(əvvəli 1-ci səhifədə)*

Türkiyə Prezidenti daha sonra Zəngilana gəlməzdən əvvəl Füzulini bir tərəfdən Şuşa, digər tərəfdən isə cənub sərhədi boyunca Ağbənd, gələcəkdə isə Naxçıvan ilə birləşdirəcək yolların inşa edildiyini gördüyünü, burada çalışan işçilərlə görüşdüyünü xatırladaraq, bölgədə reallaşdırılan yol infrastrukturunun regionun inkişafına mühüm təsir göstərəcəyini, çoxtərəfli daşımaların əsasını təşkil edəcəyini diqqətə çatdırıb. "Füzulidə də bildirdiyim kimi, bu qədər qısa müddətdə bölgənin bərpası istiqamətində görülən işlər həm Azərbaycan, həm də regionumuz üçün qürurverici və ümidvericidir", – deyə Cümhurbaşqanı qeyd edib.

Prezident Rəcəb Tayyib Ərdoğan bütün bu layihələrin uğurlu icrasını bütün dünyaya örnək olacaq inkişaf modeli kimi dəyərləndirib, eyni zamanda, istər tunellər, istər yol ötürücüləri, istərsə də avtomobil yollarının tikintisinin Qarabağın bərpa işlərinin sürətlə həyata keçirilməsini şərtləndirdiyini söyləyib. Bununla bərabər, Türkiyə olaraq, bundan sonra da Azərbaycanın bu əzəli-əbədi torpağının tez bir zamanda dirçəlməsində, yaşayış sahələrinin salınmasında qardaş ölkəyə bütün imkanlarla dəstək göstəriləcəyini vurğulayıb.

Türkiyə rəhbəri regionun inkişafında önəmli rol oynayacaq Zəngəzur dəhlizinin gələcək fəaliyyətinə də toxunaraq, deyib: "Bu coğrafiyadan keçəcək torpaq yollar və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək, Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla Azərbaycanın bütün qonşuları istifadə edəcəklər. Bir sözlə, bu layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir. Bu prosesdə sərhədlərin müəyyənləşdirilməsi və qarşılıqlı olaraq tanınması zəruridir. Mehriban qonşuluq münasibətlərinin əsasını da bu anlayış təşkil etməkdədir".

Yeri gəlmişkən, Zəngəzur dəhlizinin mühüm önəmi cənab Ərdoğanın bir sıra çıxışlarında, eləcə də böyük tarixi əhəmiyyət daşıyan "Şuşa Bəyannaməsi"ndə öz ifadəsini tapıb. Bununla yanaşı, Zəngəzur dəhlizinin davamı kimi Naxçıvan–Qars dəmiryolunun tikintisinin də Azərbaycanla Türkiyə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə dinamik təsir göstərəcəyi xüsusi vurğulanıb.

Xatırladaq ki, "Şuşa Bəyannaməsi"ndə Zəngəzur dəhlizi layihəsinə xüsusi önəm verilməsi Azərbaycan və Türkiyə üçün böyük əhəmiyyət daşıyır. Təkcə bu il ixrac həcmini 15-20 faiz artırmağı planlaşdıran qardaş ölkə ticarət dövriyyəsi 6 milyard dollara çatan Mərkəzi Asiya və 21 milyard dollar olan Çinlə iqtisadi əlaqələrdə Zəngəzur dəhlizindən istifadə edəcək. Zəngəzur dəhlizi, hətta Türkiyə–Rusiya iqtisadi əlaqələrinin də güclənməsini şərtləndirəcək.

Burada mühüm bir məqam da odur ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ermənistanın işğalında qalan ərazilərini azad etməklə Naxçıvan Muxtar Respublikası ilə respublikamızın əsas ərazisini birləşdirən dəmir və avtomobil yollarını tezliklə bərpa edərək, istifadəyə verəcək. Bu yollar Çinə Orta Asiya–Azərbaycan–Türkiyə–Avropa tranzit-nəqliyyat xəttindən istifadə etmək imkanı yaradacaq.

Bir sözlə, ərazilərimizin işğaldan azad edilməsi nəticəsində yaranmış yeni reallığa uyğun olaraq, Azərbaycanın əsas hissəsini və Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Zəngəzur dəhlizi regionun tranzit-logistika potensialını genişləndirəcək. Bu potensialın reallaşdırılması yeni nəqliyyat marşrutlarının fəaliyyətə başlamasına gətirib çıxaracaq, iqtisadi gücümüzü daha da artırmaqla yanaşı, regional əməkdaşlığı və sabitliyi möhkəmləndirəcək.

Ermənistanın dəmiryollarına nəzarət edən Rusiyanın Cənubi Qafqaz Dəmiryolu Şirkəti də Zəngəzur dəhlizində kommersiya baxımından maraqlıdır. Ermənistandan İrana 3,5 milyard ABŞ dollarına başa gələcək bahalı dəmiryol xəttinin çəkilməsində marağı olmayan rəsmi Tehran üçün də Zəngəzur dəhlizi yeni nəqliyyat imkanları açdığına görə iqtisadi baxımdan faydalıdır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 31 oktyabr.- S.1;3.